# Həftəlik
# *Bülleten*



**083**
**28 Fevral 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və layihələr
- Dünya tikililəri

**ATMİA**

info@atmia.az www.atmia.az

**Əbu-Dabidə Ərəb dünyası - Mərkəzi Asiya və Azərbaycan Biznes Forumu keçiriləcək.**

BƏƏ-nin paytaxtı Əbu-Dabidə fevralın 26-da Ərəb dünyası – Mərkəzi Asiya və Azərbaycan Biznes Forumu keçiriləcək. İki gün davam edəcək bu forum 4-cü “İnvestopia 2025” platforması çərçivəsində baş tutacaq. Tədbirdə Azərbaycanı iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli, AZPROMO, ölkəmizin BƏƏ-dəki ticarət nümayəndəliyi və səfirlik əməkdaşları təmsil edəcəklər. Forum Ərəb Ölkələri Liqası və BƏƏ İqtisadiyyat Nazirliyinin dəstəyi ilə təşkil olunur Tədbir, Doha Bəyannaməsinə əsaslanaraq, ərəb ölkələri, Mərkəzi Asiya və Azərbaycan arasında iqtisadi və investisiya əməkdaşlığını möhkəmləndirmək, eləcə də özəl sektor və biznes dairələri arasında yeni əməkdaşlıq imkanlarını üzə çıxarmaq məqsədi güdür. Forum BƏƏ-nin vitse-prezidenti Şeyx Mansur bin Zayid Al Nəhyanın himayəsi altında keçiriləcək 4-cü “İnvestopia 2025” platformasının əsas tədbirlərindən biridir. Burada 51 dialoq sessiyası təşkil olunacaq və BƏƏ-də və digər ölkələrdə investisiya mühiti, maliyyə texnologiyaları, süni intellekt, dövriyyə iqtisadiyyatı, səhiyyə və digər sahələrdə investisiya imkanları müzakirə ediləcək. Bundan başqa, “Ərəb-Çin Biznes Sammiti” və “Gələcəyin 100 Şirkəti” adlı sahibkarlıq forumu da təşkil olunacaq. Tədbir çərçivəsində hökumət başçıları, nazirlər, investorlar, iş adamları, qərarvericilər və iqtisadi ekspertlərin çıxışları gözlənilir.



**Azərbaycan sement ixracından gəlirlərini artırıb.**

Cari ilin yanvar ayında Azərbaycandan xaricə 68,3 min ton hazır və ya klinker formasında olan sement ixrac edilib.

Dövlət Gömrük Komitəsindən əldə etdiyi məlumata görə, bu miqdarda məhsul ixracından əldə olunan gəlir 4,25 milyon ABŞ dolları olub.

Sement ixracı ötən ilin eyni dövrü ilə müqayisədə miqdar ifadəsi ilə 6,3 min ton və ya 10,2%, dəyər ifadəsi ilə 750 min AŞB dolları, yaxud da 21,4% artıb.

Belə ki, 2024-cü ilin yanvar ayında Azərbaycandan xaricə 62 min ton miqdarında, 3,5 milyon ABŞ dolları dəyərindı hazır və ya klinker formasında olan sement ixrac edilib.

Qeyd edək ki, bu ilin yanvar ayında Azərbaycanda 355,4 min ton beton istehsal edilib. Bu, 2024-cü ilin eyni ayındakı göstərici ilə müqayisədə 17,1 min ton və ya 5% çoxdur. Bu ilin fevalın 1-i vəziyyətinə ölkədə hazır məhsul ehtiyatı 5,8 min ton təşkil edib.



**Dəmirli mis-molibden yatağında bu il istehsala başlanılacaq.**

Azərbaycanda qızıl, gümüş və mis hasilatı ilə məşğul olan Böyük Britaniyanın "Anglo-Asian Mining Plc." şirkəti bu il işğaldan azad edilmiş keçmiş Ağdərə rayonu ərazisində yerləşən Dəmirli mis-molibden yatağında istehsala başlayacaq. Qeyd edilib ki, şirkət Dəmirli mədən sahəsini qiymətləndirməyə davam edir və ilin sonuna qədər oradakı zavoddan istehsala yenidən başlamağı planlaşdırır. Bildirilib ki, AAM 2025-ci ilin gedişində istehsal göstərişləri ilə bağlı əlavə yeniliklər təqdim edəcək. Ümumilikdə, 2025-ci il “Anglo Asian” üçün həlledici il olacaq. AAM yeni Gilar mədənini açaraq mis istehsalını artırmağa başlayır. Şirkət 2025-ci ildə mis istehsalının indiyə qədərki ən yüksək səviyyədə olacağını proqnozlaşdırıb. Qeyd edək ki, Dəmirli yatağı uzun müddət Ermənistanın nəzarətində olub və 2023-cü ildə Azərbaycan ordusunun antiterror tədbirləri nəticəsində tam nəzarətə götürülüb. Yataqda təxminən 275 min ton mis və 3,2 min ton molibden ehtiyatının olduğu bildirilir. Xatırladaq ki, 1997-ci il avqustun 21-də imzalanmış PSA (Production Sharing Agreement/Hasilatın Pay Bölgüsü) tipli müqavilə 6 yatağın işlənməsini nəzərdə tutur. Müqavilədə Azərbaycanın payı 51 %, "Anglo-Asian Mining Plc." şirkətinin payı 49 % təşkil edir.



**Azərbaycanda polad boruların istehsalı 4 dəfə artıb.**

Bu ilin yanvar ayında Azərbaycanda 13,9 min ton polad boru istehsal edilib.
Bu barədə Dövlət Statistika Komitəsi xəbər verir.
Məlumata əsasən, bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə 10,3 min ton və ya 3,9 dəfə çoxdur.
Ötən ilin yanvar ayında isə 3,6 min ton polad poru istehsal edilmişdi.
Bu ilin fevralın 1-i vəziyyətinə hazır məhsul ehtiyatı 3,7 min ton təşkil edib  ki, bu da illik müqayisə ilə 2,4 min ton, başqa sözlə 2,8 dəfə çoxdur.



## PMD Projects UzBuild 2025 Sərgisində.

PMD Projects 25-27 fevral tarixlərində Özbəkistanın Daşkənd şəhərində keçirilən beynəlxalq inşaat sərgisi – UzBuild 2025-də iştirak edir.

Sərgi inşaat sənayesinin ən son yeniliklərini təqdim edən, regionun qabaqcıl inşaat şirkətlərini bir araya gətirən mühüm bir platformadır.

PMD Projects  Özbəkistanın beynəlxalq sərgi mərkəzi “Central Asian Expo Uzbekistan”da stend ilə təmsil olunaraq öz geniş layihə portfelini və inşaat sahəsindəki təcrübələrini nümayiş etdirir. Tədbir çərçivəsində şirkət potensial tərəfdaşlara fəaliyyət sahələri və xidmətləri haqqında ətraflı məlumat verərək yeni əməkdaşlıq imkanlarını araşdırır.

PMD Projects bu tədbirdə iştirak etməklə beynəlxalq bazarda mövqeyini gücləndirmək və yeni tərəfdaşlıqlar qurmaq məqsədini güdür.



**Bakıda yeni söküntü dalğası - Bəzi binalar təmir də ediləcək.**

Bakıdakı bəzi binalar təmir olunacaq, bəziləri isə sökülәcәk. Paytaxtda dövlət mənzil fonduna aid binaların əsaslı təmirinə başlanılır. Bu məqsədlə iki böyük tender elan edilib. "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC tərəfindən aparılacaq əsaslı təmirin birinci mərhələsində Nərimanov, Səbail, Nizami, Binəqədi, Xəzər, Qaradağ və Pirallahı rayonlarında yerləşən yaşayış binaları təmir olunacaq. Bu istiqamətdə görüləcək işlərin ümumi dəyəri 24,5 milyon manat təşkil edir. İkinci tender isə Nəsimi, Yasamal, Xətai, Suraxanı və Sabunçu rayonlarını əhatə edir. Burada da dövlət mənzil fonduna aid binaların təmir olunması planlaşdırılıb və layihənin təxmin edilən büdcəsi 24 milyon manatdır. 48,5 milyonluq layihə çərçiəsində ümumilikdə 1100 qəzalı binanın təmiri və ya sökülməsi nəzərdə tutulub. Qaradağ Mənzil Kommunal Təsərrüfatı birliyindən bildirildi ki, rayon ərazisində 215 qismən qəzalı bina var. Sabunçu rayon İcra Hakimiyyətindən isə bildirildi ki, rayon ərazisində qəzalı olması barədə akt tərtib edilmiş 47 bina var. Bundan əlavə 180 bina da mövcuddur ki, onların qəzalılığını təsdiq edən müvafiq aktlar olmasa da, onlar istismara tam yararsız vəziyyətdədir. Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı qeyd edib ki, bu layihə paytaxtın ümumi memarlıq görünüşünün daha cəlbedici olmasına, şəhər infrastrukturunun inkişafına və ekoloji dayanıqlılığın artırılmasına da töhfə verəcək. Sakinlər daha rahat, təhlükəsiz və müasir şəraitdə yaşamaq imkanı əldə edəcəklər.



**ATMİA üzvü AR Consruction-ın dəvəti ilə işgüzar səhər yeməyi təşkil olunub.**

25 fevral tarixində ATMİA üzvü AR Consruction-ın dəvəti ilə işgüzar səhər yeməyi təşkil olunub. Görüş zamanı AR Construction rəhbəri və tanınmış Türkiyə Darhan şirkətinin nümayəndələri yüksək səs və vibrasiya həlləri, habelə, seysmik asqı sistemlərinə aid son innovasiyalar barədə maraqlı məlumatları təqdim etdilər. Tədbir iştirakçıları produktiv müzakirələr etdilər, yeni əlaqələr qurdular. Tədbir zananı ATMİA Baş katibi Şahanə Sarı AR Construction rəhbərliyinə ATMİA tam hüquqlu üzv sertifikatı təqdim edib. Tədbirdə iştirak edən şirkətlərə təşəkkür edir, yeni tam hüquqlu üzvümüz AR Construction şirkətini təbrik edir, yeni uğurlar arzu edirik!






**“Azərbaycan Nəqliyyat Ekspeditorları şirkətləri Assosiasiyası” və ATMİA arasında memorandum imzalanıb.**

25 fevral tarixində “Azərbaycan Nəqliyyat Ekspeditorları şirkətləri Assosiasiyası” və ATMİA arasında memorandum imzalanıb. ATMİA Baş katibi Şahanə Sarı bu iş birliyinin ixracatla məşğul olan və ixracat planlayan şirkətlər üçün uğuru bir başlangıc olacağını bildirib. “Azərbaycan Nəqliyyat Ekspeditorları Şirkətləri Assosiasiyası”nın sədri Kamran Həbibov da bu əməkdaşlıqdan məmnun olduğunu bildirib.



**ATMİA-da üzvlər üçün logistika üzrə master-klas tədbiri keçirilmişdir.**

25 fevral tarixində ATMİA-da üzvlər üçün logistika üzrə master-klas tədbiri keçirilmişdir. “Azərbaycan Nəqliyyat Ekspeditorları Şirkətləri Assosiasiyası”nın sədri Kamran Həbibov ATMİA üzvlərinə logistikanın biznesdə rolu və strateji əhəmiyyəti, daşınmanın qiymətləndirilməsi və təşkili, risklərin analizi, podratçının seçilməsi, idxal və ixrac prosedurları və yüklərin sığortası haqqında sahibkarlara məlumat verilmiş, sahibkarları maraqlandıran suallar cavablandırılmışdır.
İxracat maraq göstərən sahibkarları dəstəkləməkdən məmnunuq.



**ATMİA İdarə Heyətinin qeyri rəsmi formatda görüşü baş tutub.**

27 fevral tarixində ATMİA İdarə Heyətinin qeyri rəsmi formatda görüşü baş tutub. Görüş İdarə Heyətinə üzv şirkətlərdən İsfa Group-a aid Mister Wood brendinin show room-da keçirilib. Ölkə daxilində və beynəlxalq müstəvidə planlanan sektorial layihələr müzakirə edildi.



## ATMİA üzvü «Behrud İnşaat»
## Şirkət haqqında:

Behrud inşaat şirkəti Bakıdaki fəaliyyətinə 1996-cı ildə başlamışdır. Şirkət, bu gün Azərbaycanda inşaat materiallarının satışı və idlaxı ilə məşğul olan, ən tanınmış və etibarlı şirkət kimi bilinir və gündən günə böyüyərək öz adını ölkə üzrə yaymağa davam edir. Şirkətin göstərdiyi xidmətlərə:
Birdən çox ölkənənin, ən tanınmış və keyfiyyətli məhsullarının satışı, Dam örtükləri, Fasad, Havalandırma təmin ediciləri, İnşaat alətləri, Dam örtüyü aksessuarları, Mansard pencərələri, Nov sistemləri və s. daxildir.
«Behurd inşaat» şirkətinin qurucusu Almammədov İlham.

**Əlaqə məlumatları:**

Ünvan: Bakı şəh. Cəfər Xəndan küçəsi 54.
Tel: +994 12 310 53 55, +994 12 447 25 86, +994 55 224 21 71
E-mail: info@behrud.az
https://behrud.az/



## ATMİA üzvü "ARGROUP CONSTRUCTION SERVICES" MMC

### Şirkət haqqında:

"ARGROUP CONSTRUCTION SERVICES" şirkəti bir neçə illərdir Azərbaycanda passiv yanğın izolyasiyası, yüksək istilik, yanğın izolyasiyası (Firestop & Fireproof), səs - küy və vibrasiya, kriogen izolyasiya, ən qabaqcıl texnologiya məhsulları, xidmətləri və dizaynı sahəsində xidmətlər göstərir. Şirkətin göstərdiyi xidmətlərə: Yük dartma testi, Beton deşmə və kəsmə, Titrəşim Testi, Dinamik və Statik yük təhlili, Support Dizaynı, Asqı sistemləri materialları, həlləri, layihələndirmə və dizayn, Kabellərin qorunması – Ətraf Mühitin Mühafizəsi və s. daxildir.

"ARGROUP CONSTRUCTION SERVICES" MMC şirkətinin direktoru Allahverdiyev Cavid.

**Əlaqə məlumatları:**

Ünvan: İzzət Orucova 18 , Xətai , Bakı , Azərbaycan

Telefon:+994554907424;+994505500330

E-mail: salesbaku@argroup.az

https://www.argroup.az/



# ANONS

**Hörmətli sahibkarlar!**

21-24 aprel 2025 tarixlərində Konyada Türkiyənin aparıcı iş adamları ilə görüşlər və istehsal avadanlıqları fabriklərinə eksklüziv ziyarətlər təşkil olunacaq!Bu səfər sizə nə qazandıracaq?
Yeni işgüzar əlaqələr və əməkdaşlıq!
Türkiyənin sənayesi ilə tanışlıq
Səfərin qiyməti 1 nəfər üçün: 250 USD!
Qiymətə daxildir:

- Bakı-İstanbul-Konya-İstanbul-Bakı bütün aviabiletlər
- Bütün transferlər (hava limanı, otel, tədbirlər)
- 5 ulduzlu oteldə 3 gecə qonaqlama
- Qidalanma
- 1 gün işgüzar ziyafət

Yerlər məhduddur, tələsin!
Qeydiyyat: 010 250 03 24

anons

ATMIA

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: SEJEM DOM - HOME FAIR 2025**

**Tarixlər: 05 - 09 mart 2025-ci il,**

**Məkan: Ljubljanski sejem - Lyublyana Sərgi və Konqres Mərkəzi, Lyublyana (Sloveniya)**

Bu Sərgi Sloveniya və Xarici İstehsalçılara Ev və Ətraf Mühit, Tikinti Məhsulları, Qapı və Pəncərələri təqdim etmək məqsədi daşıyır.

**Sərginin adı: Architecture & Construction Materials 2025**

**Tarixlər: 04 - 07 mart 2025-ci il,**

**Məkan: Tokyo Big Sight - Beynəlxalq Sərgi Mərkəzi, Tokio, Yaponiya**

ARCHITECTURE + CONTRUCTION MATERIALS müxtəlif tikinti materialları və tikinti üçün zəruri olan digər əlaqəli məhsulların hərtərəfli sərgisidir.

**Sərginin adı: IACE 2025**

**Tarixlər: 10 - 12 mart 2025-ci il**

**Məkan: Şanxay Everbrayt Konqres və Sərgi Mərkəzi (SECEC), Şanxay, Çin**

Şanxay Beynəlxalq Qabaqcıl Keramika Sərgi və Konfransı yerli və xarici müəssisələr üçün üstünlük verilən platformadır

**Sərginin adı: Baumesse Nrw 2025**

**Tarixlər: 14 - 16 mart 2025-ci il,**

**Məkan: Dortmund, Almaniya, Westfalenhallen Dortmund**

Baumesse Nrw bina tikintisi, ev əşyaları və ev tekstili, memarlıq və dizayn, daşınmaz əmlak agentləri, məişət xidmətləri sənayesi kimi sahələrə sahib olacaq.

**Azərbaycanda Roma papası adına kilsə tikiləcək - 8,2 MİLYONLUQ TENDER ELANI**

“Bakı Şəhər Əsaslı Tikinti və Təmir” MMC  açıq tender elan edir. elanda Roma papası II İohann Pavel adına katolik kilsə binasının tikintisinin satın alınması nəzərdə tutulur.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əhməd Məmmədov, Mühəndis
Email : ahmed.mmmdov@gmail.com
Əlaqə telefonu : 0506121527



**"Bakı Şəhər Əsaslı Tikinti və Təmir" 48,5 milyon manatlıq iki - TENDER ELAN ETDİ**

"Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC 2 açıq tender elan edir. Elanlar dövlət mənzil fonduna aid binaların təmirinin satın alınması ilə bağlıdır. Həmin elanlar aşağıdakılardır :

1) Bakı şəhərinin, Nəsimi, Yasamal, Xətai, Suraxanı, Sabunçu rayonları ərazisində dövlət mənzil fonduna aid binaların təmirinin satın alınması,
2) Bakı şəhərinin, Nərimanov, Səbail, Nizami, Binəqədi, Xəzər, Qaradağ, Pirallahı rayonları ərazisində dövlət mənzil fonduna aid binaların təmirinin satın alınması

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əhməd Məmmədov, Mühəndis
Email : ahmed.mmmdov@gmail.com
Əlaqə telefonu : 0506121527



**Xəstəxanalarda təmir işlərinə 1 milyon manat ayrıldı - TENDER, ŞƏRTLƏR**

"Bakı Baş Səhiyyə Mərkəzi" açıq tender elan edir.
Elanda "Bakı Baş Səhiyyə Mərkəzi" PHŞ-ın strukturuna daxil olan tibb müəssisələrində cari təmir işlərinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Ehtiram Hacıyev, Böyük mütəxəssis
Email : ehajiyev.bbsm@tabib.gov.az
Əlaqə telefonu : 055-488-75-27



**AZƏRBAYCAN RESPUBLİKASININ RƏQƏMSAL İNKİŞAF VƏ NƏQLİYYAT NAZİRLİYİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Və Nəqliyyat Nazirliyi açıq tender elan edir.
Elanda İnzibati binanın cari təmir işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Məzahir Qarayev, Satınalma üzrə mütəxəssis
Email: Mazahir.Garayev@mincom.gov.az
Əlaqə telefonu : +994125985858 (275)



**Bakının bu rayonları abadlaşacaq, 57 milyon manatlıq - TENDERLƏR ELAN EDİLDİ.**

Bakı Şəhər Əsaslı Tikinti və Təmir 2 ədəd açıq tender elan edir.

Elanlar Bakının bir sıra ərazilərində səkilərdə, həyətlərdə, park və bağlarda təmir, yenidənqurma və abadlıq işlərinin satın alınması ilə bağlıdır. Həmin elanlar aşağıdakılardır :

1)Bakı şəhərinin, Nərimanov, Nəsimi, Səbail, Xətai, Sabunçu rayonları ərazisində səkilərdə, həyətlərdə, park və bağlarda təmir, yenidənqurma və abadlıq işlərinin satın alınması nəzərdə tutulur.

2)Bakı şəhərinin, Nizami, Yasamal, Binəqədi, Suraxanı, Xəzər, Qaradağ, Pirallahı rayonları ərazisində səkilərdə, həyətlərdə, park və xiyabanlarda təmir, yenidənqurma və abadlıq işlərinin satın alınması

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əhməd Məmmədov, Mühəndis

Email : ahmed.mmmdov@gmail.com

Əlaqə telefonu : 0506121527






**www.atmia.az**